# Sahibkarlığa qayğı öz nəticəsini verir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyri-neft sektorunu, xüsusən, əhalinin ərzaq təhlükəsizliyində mühüm rol oynayan kənd təsərrüfatını inkişaf etdirmək barədə tapşırıqları rayonumuzda uğurla yerinə yetirilir. Kənd təsərrufatı məhsulu istehsalçılarına hər cür qayğı göstərilir. Onların maddi və mənəvi həvəsləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu isə öz nəticəsini məhsul istehsalının daha da artmasında göstərir.*



Nic qəsəbəsindən sahibkar Ağalət Baxışov da ona göstərilən dövlət dəstəyindən ruhlanaraq hər il istehsal etdiyi məhsulların çeşidlərini artırmaqla yanaşı məhsuldarlığın da yüksək olmasına xüsusi diqqət yetirir.

Ağalət Baxışov mülkiyyətçilərdən könüllü şəkildə icarəyə götürdüyü 155 hektar sahəni aqrotexniki qaydada əkib becərmiş və bu il hər hektardan 32 sentner taxıl əldə etmişdir. Torpaq sahiblərinə də razılaşmaya uyğun şəkildə məhsul vermişdir.

Sahibkar taxılçılıqla yanaşı digər kənd təsərrüfatı bitkilərinin də əkilib becərilməsində, keyfiyyətli məhsul əldə olunmasında uğur qazanır. Belə ki, o 4,6 hektar sahədə yonca, 1 hektar sahədə qarğıdalı 0,6 hektar sahədə kartof və digər kənd təsərrüfatfı bitkiləri əkib becərmiş və yüksək məhsuldarlıq əldə etmişdir.

Bundan başqa sahibkar 2,4 hektar sahədə yeni fındıq bağı salmışdır. Bir məsələni də qeyd edim ki Ağalət Baxışovun istehsal etdiyi taxıl yüksək keyfiyyətinə görə toxum kimi istifadə olunur. Onun rəhbərlik etdiyi fermer təsərrüfatı toxumçuluk təsərrüfatı kimi tanınır.

Fermerə «sahibkarlara dəstək» xəttilə təqdim olunmuş toxumtəmizləyən maşınla rayonun bir çox əkinçiliklə məşğul olan kənd əhalisinə, sahibkara toxum təmizlinməsində yardım göstərilir.

Sahibkar bu ilin 4 avqustunda Azərbaycan Respublikası Prezidentinin Qax şəhərində keçirdiyi kənd təsərrüfatı müşavirəsində iştirak etmişdir. O deyir ki, ölkə başçısının keçirdiyi müşavirədə iştirak etməsi, bir başa dövlət rəhbərinin tapşırıq və tövsiyələrini dinləməsi onun məsuliyyətini daha da artırır.

**Əhməd MƏMMƏDLİ,**
**Nic qəsəbəsi, müəllim.**

# Tütünçülüyün inkişafı kənd əhalisinin məşğulluğunun və rifahının yüksəldilməsinə stimul yaradır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev avqust ayının 10-da «Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi barədə Sərəncam imzalamışdır.*

Dövlət Proqramında ölkəmizdə tütünçülüyün inkişafı tarixi xatırlanır. Respublikamızda tütünçülüyün elmi əsaslarla inkişafı və bu sahə üzrə yüksək sənaye potensialının yaradılması ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dönəminə—ötən əsrin 70-ci illərinin başlanğıcına təsadüf edir. Həmin illərdə həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda tütünçülüyün çox sürətlə inkişaf etməsi, bu sahənin böyük sənaye potensialının yaradılması, tütünçülüyün elmi bazasının gücləndirilməsi hesabına 1970-1980-ci illərdə tütünün əkin sahəsi 17 min hektar, istehsalın həcmi isə 60 min tondan çox olmuşdur. Respublikada həmin illərdə tütünçülük kimi gəlirli sahənin inkişafı kənd əhalisinin rifah halının yüksəlməsinə, çoxsaylı yaşayış evlərinin, sosial obyektlərin tikilməsinə imkan vermişdir.



Dövlət Proqramında tütünçülüyün şöhrətinin qaytarılmasının vacibliyi vurğulanmaqla yanaşı, bu sahənin inkişafı üçün konkret yollar da göstərilmişdir. Proqramda qeyd olunur ki, ölkənin dağlıq və dağətəyi rayonlarının torpaq-iqlim şəraiti tütün sənayesinin tələbatına uyğun, beynəlxalq standartlara cavab verən keyfiyyətli tütün yetişdirilməsinə və ildə 50-60 min ton tütün istehsal olunmasına imkan verir.

Ölkəmizdə tütünçülüyün inkişafı üçün hüquqi işəskilatı və iqtisadi əsasların müəyyən edilməsi, tütün və tütün məhsullarının dövriyyəsi ilə əlaqədar münasibətlərin tənzimlənməsi məqsədilə 2001-ci il 8 iyun tarixində «Tütün və tütün məmulatı haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bununla yanaşı ölkədə tütünçülüyün inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi və tütün istehsalı ilə məşğul olan əhalinin rifah halının yüksəldilməsi üçün bir sıra mühüm dövlət aktları qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, rayonumuz ötən əsrin 70-80-ci illərində tütünçülük sahəsində ən qabaqcıl rayonlarından biri idi. Respublikada istehsal olunan tütünün 12-14 faizi (6-7 min ton) rayonumuzun payına düşürdü. Təəssüf ki, ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində respublikamızda baş verən iqtisadi və siyasi xaos digər sahələr kimi tütünçülüyə də böyük zərbə vurdu. Bu gəlirli sahə tənəzzülə uğradı. Dövlət başçımızın rəhbərliyilə aqrar sahənin inkişafı üçün həyata keçirilən ardıcıl tədbirlər tezliklə rayonumuzda da tütünçülüyün geniş vüsət almasına səbəb olacaqdır. Bu da öz növbəsində əhalinin məşğulluğunun və rifahının yüksəlməsinə böyük təkan verəcəkdir.

**Cəlil SƏFƏRÇİNOV,**
**«Qəbələ»nin**
**ştatdankənar müxbiri.**

# Profilaktiki tədbirlər ardıcıl həyata keçirilir

Fərdi təsərrüfatlarda iri və xırda buynuzlu mal-qaranın, qoyun və keçilərin, ev quşlarının artması, iri heyvandarlıq və quşçuluq komplekslərinin yaradılması bu təsərrüfat sahələrində heyvan və quşların sağlamlığının daha ciddi şəkildə qorunmasını tələb edir. Heyvan və quşların sağlamlığı əhalinin keyfiyyətli ərzaqla təminatı ilə yanaşı, ev heyvanları və quşlarının sayının daha da artırılması üçün çox önəmlidir. Bu danılmaz faktı nəzərə alan rayon baytarlıq idarəsi ilin əvvəlində ev heyvanları və ev quşları arasında aparılacaq profilaktiki işlərin planını tərtib etmiş və ilin 7 ayı üçün nəzərdə tutulan bütün epizodik tədbirləri həyata keçirmişdir. Söhbət bir çox heyvan və quş xəstəliklərinə qarşı aparılan vaksinləşmə və digər tədbirlərdən gedir. Hal-hazırda epizodik tədbirlər davam edir və nəticədə durum sabitdir. Bu ilin 7 ayı ərzində idarənin mütəxəssisləri tərəfindən 8 baş iribuynuzlu və 2 baş xırda buynuzlu heyvanda brusellyoz xəstəliyi aşkar edilmişdir. Həmin heyvanlar respublika baş baytarlıq idarəsinin təlimatına uyğun olaraq təsərrüfatlardan çıxarılmış, kəsilərək zərərsizləşdirilməsi üçün aidiyyatı qurumlara təhvil verilmişdir.

**Bəhman ABDURAHMANOV,**
**rayonun baş baytar həkimi.**

# Mal-qaranın cins tərkibi yaxşılaşdırılır

Rayonda mövcud olan heyvandarlıq kompleksləri ilə yanaşı fərdi heyvandarlıq təsərrüfatlarında da mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətinin yaxşılaşdırılmasına maraq gündən-günə artır. Bu məqsədlə fəaliyyət göstərən süni mayalanma məntəqələrində 9 nəfər mütəxəssis çalışır. İlin əvvəlindən 4000 başa yaxın inək və düyələrdə süni mayalanma aparılmış, süni mayalanmış heyvanlardan 1500-ə qədər sağlam buzov alınmışdır. 2016-cı ilin oktyabrından etibarən süni mayalanma yolu ilə alınmış hər bir baş buzov üçün subsidiya verilir. 2017-ci ilin əvvəlindən 1000 başdan çox süni mayalanmadan alınmış buzova subsidiya hesablanmışdır. Bu iş mütəmadi olaraq davam edir. Ona görə də heyvan sahibləri heyvanların süni mayalanmasına üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi yaxşılaşır. Bu isə öz növbəsində daha çox və keyfiyyətli heyvandarlıq məhsulları deməkdir.




**«Qəbələ»**

# Bol məhsulun əsası qoyulur

Taxıl iki yay görməlidir deyib əkinçi babalarımız. Əgər taxıl iki yay görmürsə bol məhsuldan əlini çək. Doğrudan da belədir. Taxıl biçini yayda başa çatır. Gələn ilin bol məhsulu üçün toxum yayda seçilib təmizlənir. Payızlıq əkinlər üçün birinci yay, şum adətən isti yay günlərində aparılır. Bunun iki səbəbi var birinci taxıl altından yenicə çıxmış torpağı şumlamaq uzun müddət günəşin, yağışın döyüb bərkitdiyi torpağa nisbətən daha rahat olur. İkinci məsələ isə yayda şum aparıldıqda ziyanvericilər, alaq otlarının toxumları qızmar günəş altında qovrulub məhv olur. Digər tərəfdən yayda şumlanmış yeri əkin qabağı ikinci dəfə şumladıqda həm çətinlik törətmir, həm də iri kəsək qalmır. Yer hamar olur. Ona görə də taxılçılarımız hələ avqust ayından əkin sahələrində yay şumu aparır, toxumlar seçir, dərmanlayıb səpinə hazırlayırlar. Payız yaxınlaşdıqca tarlalardan daha çox traktor səsi gəlir. Yay şumunun çıxarılması işi rayonun Düzəncə adlanan sahəsindəki kəndlərdə-- Hacallı, Kürd, Bayramkoxalı, Mamaylı və digər kəndlərdə o cumlədən Qaş sahəsi adlanan ərazidə daha sürətlə gedir.

Bu il məhsulun bol bazar qiymətlərinin münasib olması əkinçiləri daha da ruhlandırmışdır. İşin gedişi göstərir ki, onlar gələn il də bol məhsul əldə etmək üçün aqrotexniki qaydalara tam riayət etməklə əzmlə çalışırlar.

**Vüsal SƏMƏDOV.**